# Ümumdünya sərvətinin önəmli tərkib hissəsi: Azərbaycan mədəniyyəti

## Azərbaycan YUNESKO ilə əməkdaşlığın inkişafına böyük əhəmiyyət verir

**Birləşmiş Millətlər Təşkilatının (BMT) ixtisaslaşmış təşkilatlarından biri də YUNESKO-dur. Bu qurum dünyanın təhsil, elm və mədəniyyət məsələləri sahəsində əməkdaşlığın ən böyük hökumətlərarası forumudur. YUNESKO-nun fəaliyyəti daha ali məqsədə - təhsil, elm, mədəniyyət və kommunikasiya vasitəsilə sülhü müdafiə etmək ideyasını möhkəmləndirməyə yönəlib.**



Təşkilatın Nizamnaməsinin 1-ci maddəsində qeyd edilir ki, YUNESKO irqindən, cinsindən, dilindən və dinindən asılı olmayaraq bütün xalqlar üçün BMT-nin Nizamnaməsində elan edilmiş ədalətə, qanunçuluğa və insan hüquqlarına, habelə əsas azadlıqlara hamılıqla hörmətin təmin edilməsi naminə xalqların təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığını genişləndirməklə sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə yardım göstərməyi qarşısına vəzifə qoyur. Hazırda 200-ə yaxın dövlət YUNESKO-nun üzvüdür və BMT-nin, həmçinin onun ixtisaslaşmış qurumları ilə sıx əlaqədədir.

Azərbaycan da YUNESKO ilə əməkdaşlığın inkişafına böyük əhəmiyyət verir. Ölkəmiz bu qurumun "Silahlı münaqişə zamanı mədəni dəyərlərin qorunması haqqında", "Ümumdünya mədəni və təbii irsinin qorunması haqqında", "Avropa regionu dövlətlərində tədris kurslarının, ali təhsil haqqında diplomların və elmi dərəcələrin tanınması haqqında", "Asiya və Sakit Okean dövlətlərində tədris kurslarının, ali təhsil haqqında diplomların və elmi dərəcələrin tanınması haqqında", "Müəlliflik hüququ haqqında", "Avropa regionunda ali təhsil ixtisaslarının tanınması haqqında", "Mədəni dəyərlərin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında", "Beynəlxalq xüsusi hüququ unifikasiya institutunun (YUNİDRUA) oğurlanmış, yaxud qanunsuz çıxarılmış mədəni dəyərlər haqqında", "Qeyri-maddi mədəni irsin qorunması haqqında", " İdmanda dopinqə qarşı mübarizə haqqında" , "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" konvensiyalarına qoşulub.

Şübhəsiz ki, Azərbaycan-YUNESKO münasibətlərinin inkişafında, qarşılıqlı əlaqələrin möhkəmləndirilməsində Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban Əliyevanın da xidmətləri böyükdür. Fondun prezidenti Mehriban Əliyevanın ənənəvi musiqinin, ədəbiyyat və poeziyanın inkişafına verdiyi töhfələrə, musiqi təhsili və dünya mədəniyyətlərinin mübadiləsi sahəsindəki xidmətlərinə və YUNESKO-nun ideyalarına sadiqliyinə görə bu təşkilatın xoşməramlı səfiri adına layiq görülməsi də bu işlərin məntiqi nəticəsidir. Ölkənin birinci xanımı Mehriban Əliyevanın peşəkar fəaliyyəti nəticəsində Azərbaycanın muğam ifaçılıq sənəti, aşıq sənəti, Novruz bayramı, Azərbaycan xalçası, tar ifaçılıq sənəti YUNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına, Çövkən-Qarabağ atüstü oyun ənənəsi isə qurumun təcili qorunmağa ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib. Ötən il isə Azərbaycan kəlağayısı bu mötəbər siyahıda yer alıb. Azərbaycan tarixində ilk dəfə olaraq Şirvanşahlar Sarayı və Qız Qalası daxil olmaqla İçəri Şəhər Dövlət Tarix Memarlıq Kompleksi, Qobustan Dövlət tarixi-bədii qoruğu Dünya Mədəni İrs Siyahısına daxil edilib.

YUNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi irsinin şah əsəri elan olunan muğamımız Azərbaycanın professional musiqi mədəniyyətinin şifahi irsinin mühüm qismini təşkil etməklə, Azərbaycan xalqının mədəni ənənələrində və tarixində dərin köklərə malikdir. Bu mədəni ənənənin Azərbaycanda köklərinin olması ölkədə onun daşıyıcılarının sayı, eləcə də onun Azərbaycan bəstəkarlarının, rəssamlarının, heykəltəraşlarının və şairlərinin tükənməz ilham mənbəyi olan milli mədəniyyətdə mühüm rolu ilə təsdiqlənir. Bir sıra ümumi, bədii cizgiləri Azərbaycan muğamını İran dəsgahları, özbək-tacik şaşmakomları, uyğur mukamları, hind raqaları, ərəb nubaları, türk təqsimləri ilə qohumlaşdırır və bütün bunlar Şərq musiqisinin ümumibədii ənənələrini təşkil edir. Bununla yanaşı, muğam sənəti azərbaycanlılar tərəfindən milli özünüdərk və özünü eyniləşdirmənin əsasını təşkil edən başlıca mədəni dəyərlərdən biri kimi qavranılır.



Tarixin müxtəlif dönəmlərində muğamla bağlı bir çox faktlar var: 1902-ci ildə Azərbaycan muğam musiqisindən ibarət ilk səsyazma valı buraxılıb. 1971-ci ildə YUNESCO 50 albomdan ibarət olan "Dünya ənənəvi musiqisinin antologiyası" kolleksiyasına "Şərqin musiqi antologiyası" seriyasında çıxan "Azərbaycan musiqisi" plastinkasını daxil edib. 1975-ci ildə Azərbaycan muğamları YUNESCO xətti ilə "Musiqi mənbələri" seriyası üzrə yayılıb. 1979-cu ildə Azərbaycan muğamı Andrey Tarkovskinin bütün dünya ekranlarını dolaşan "Stalker" filmində səsləndirilib. 1999-cu ildə Azərbaycanın məşhur muğam ifaçısı Alim Qasımov YUNESCO Beynəlxalq Musiqi Şurasının birinci mükafatını qazanıb. 2006-cı ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə ənənəvi Muğam Televiziya Müsabiqəsinə start verilib, iki il sonra yenə də qurumun təşəbbüsü ilə Azərbaycan muğamlarına həsr olunmuş "Muğam ensiklopediyası" kitabı nəşr edilib. 2009-cu ildə Heydər Əliyev Fondu və Azərbaycan Bəstəkarlar İttifaqının təşəbbüsü ilə hər iki ildən bir keçirilən "Muğam aləmi" Beynəlxalq Festivalı, festival çərçivəsində Beynəlxalq Muğam Müsabiqəsi təşkil olunub. 2009-cu ildə Bakıda Beynəlxalq Muğam Mərkəzi tikilərək istifadəyə verilib. Hazırda da ənənəvi Muğam Televiziya Müsabiqəsi keçirilməkdədir.

2008-ci ildə YUNESCO Azərbaycan muğamını "Bəşəriyyətin şifahi və mənəvi irsinin şedevrləri" siyahısına daxil edib və bununla da muğamın bədii təkrarolunmazlığını və dünya mədəniyyəti üçün dəyərini təsdiqləyib. Heydər Əliyev Fondunun muğamla bağlı müntəzəm həyata keçirdiyi layihələr bu sənətin son dövrlərdə dünyada daha da məşhurlaşmasına səbəb olub. Bu yöndə fəal təbliğatın nəticəsi olaraq, 2003-cü ildə YUNESCO milli musiqimizin təməl daşı sayılan muğamatı "Bəşəriyyətin qeyri-maddi irsinin şah əsərlərindən biri" elan edib.

Birləşmiş Ərəb Əmirliklərinin Abu-Dabi şəhərində 2009-cu ilin 28 sentyabr - 2 oktyabr tarixlərində keçirilən YUNESKO-nun Qeyri-maddi Mədəni İrsin qorunması üzrə Komitəsinin 4-cü sessiyası zamanı aşıq sənəti də təşkilatın Qeyri-maddi Mədəni İrsin Reprezentativ siyahısına daxil edilib. Bu hadisə aşıq sənətinin Azərbaycan mədəni irsinin ən qədim nümunələrindən biri olduğunu beynəlxalq səviyyədə bir daha təsdiqləyib. Qeyd edək ki, Azərbaycan musiqisinin professional şifahi ənənələrinə, muğamlarla bərabər, aşıqların musiqi-poetik yaradıcılığı da daxildir. Azərbaycan aşıq sənətində bir neçə məktəb mövcuddur. Hər bir məktəbə məxsus aşığın ifa tərzi bölgə xüsusiyyətləri ilə bağlıdır. Məsələn, Göyçə, Gəncə, Kəlbəcər, Qazax, Tovuz, Borçalı, Şirvan və ya Salyan aşıqları fərdi üslub cəhətləri ilə bir-birindən fərqlənirlər. Onlar bu günədək yerli ənənələri qoruyub saxlayırlar. Aşıq sənəti indi də bütün xalqın musiqi-yaradıcılıq düşüncəsində öz ictimai əhəmiyyətini saxlamaqdadır. Onun mənbələrindən indiki peşəkar bəstəkarlar da bəhrələnir və öz yaradıcılıqlarında ondan çox uğur və dəqiqliklə istifadə edirlər.

Novruz Şimal yarımkürəsində astronomik yazın başlandığı, gecə-gündüz bərabərliyi günündə (martın 20 -22-də) keçirilir. Bir sıra xalqlar yaz fəslinin gəlməsini təbiətin canlanması ilə bağlayır, bu münasibətlə şənliklər keçirir, onu yeni ilin başlanğıcı kimi bayram edirlər. Novruzun Azərbaycan dövlətinin və xalqının tarixində isə xüsusi yeri var. Belə ki, 2009-cu il sentyabrın 30-da Novruz YUNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına salınıb. Bu uğur eyni zamanda qədim el sənətimizin, maddi və mənəvi sərvətlərimizin mühafizəsinin əmin əllərdə olduğunu bir daha təsdiqləyir. Artıq Azərbaycanın mədəniyyətinin dünyanın ən mötəbər qurumlarından biri olan YUNESKO-nun siyahısında təsdiq olunmuş yeri var və bu, gələcək nəsillər üçün əvəzolunmaz töhfədir. Həmçinin BMT Baş Məclisinin 64-cü sessiyasının iclasında bütün dünyada martın 21-i "Beynəlxalq Novruz Günü" elan edilib.



Xalça sənəti də Azərbaycanın çox fərqli milli sərvətidir. Bu sənət növü bütövlükdə dünyamızı özündə əks etdirərək, Azərbaycanın məxsusi dəyərlərini özündə cəmləşdirir. 2010-cu il noyabrın 15-19-da Keniyanın paytaxtı Nayrobidə YUNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 5-ci sessiyasında Azərbaycan xalçası YUNESCO-ya üzv olan ölkələr tərəfindən bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısına daxil edilib. Azərbaycan tərəfi bu yöndə xeyli müddət idi ki, təşkilat çərçivəsində müvafiq iş aparırdı. Bu hadisə xalça sənətinin Azərbaycan mədəni irsinin ən qədim nümunələrindən biri kimi beynəlxalq səviyyədə təsdiqinə çevrilib. Azərbaycan xalçaları - Şərq xalçaçılıq sənətinin bir qoludur. 2010-cu ilin noyabr ayında YUNESCO-nun "Qeyri-maddi Mədəni İrs" siyahısına salınan xalçalarımız təəssüf ki, dünya muzeylərində çox zaman Qafqaz, İran və başqa ölkələrin xalçaları adı ilə nümayiş etdirilir. Azərbaycan xalçaları sənət sahəsi kimi həm coğrafi mövqeyinə, həm də naxış, kompozisiya, rəng həlli və texniki xüsusiyyətlərinə görə şərti olaraq Quba, Abşeron, Şirvan, Gəncə, Qazax, Qarabağ, Təbriz və Naxçıvan xalçaçılıq məktəblərinə bölünür. Bu gün bizim xalçalar Nyu-Yorkun "Metropoliten", Londonun "Viktoriya və Albert", Parisin "Luvr", İstanbulun "Topqapı", Romanın, Berlinin, Tehranın, Qahirənin, Moskvanın və Vyananın məşhur muzeylərində nümayiş etdirilir. Bütün bunlar barədə ictimaiyyətə daha dolğun məlumat vermək üçün Heydər Əliyev Fondu tərəfindən "Azərbaycan xalçaları" kataloqu nəfis tərtibatla nəşr edilərək Azərbaycanda təqdimatı keçirilib.

YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 2012-ci ildə keçirilən 7-ci sessiyasında təşkilatın Bəşəriyyətin Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısının müzakirəsindən sonra Azərbaycan tar ifaçılıq sənəti də bu siyahıya daxil edilib. Bununla yanaşı, Qarabağ atları üzərində oynanılan Azərbaycanın milli çovqan oyunu da 2013-cü ilin dekabr ayında YUNESCO-nun təcili mühafizəyə ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Qərar YUNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Komitəsinin Bakıda keçirilən 8-ci sessiyasında qəbul olunub. Ən nəhayət, YUNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 2014-cü il noyabrın 26-da keçirilən iclasında Azərbaycan kəlağayı sənəti "Kəlağayı simvolizmi və ənənəvi sənəti" adı ilə YUNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib. Kəlağayı faylı Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın dəstəyi ilə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən hazırlanıb. Heydər Əliyev Fondu, Mədəniyyət və Turizm Nazirliyi, ölkəmizin YUNESCO yanında daimi nümayəndəliyi, YUNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının birgə həyata keçirdikləri çoxşaxəli fəaliyyət nəticəsində Komitə kəlağayı sənətinin Azərbaycan xalqının milli mənəvi dəyərlər sistemində və adət-ənənələrimizdə ən mühüm mədəniyyət nümunəsi olduğunu beynəlxalq səviyyədə təsdiq edib.

Sadalanan faktlardan da göründüyü kimi, Azərbaycanın YUNESKO ilə əməkdaşlığı nəticəsində ölkəmizin qədim və zəngin mədəniyyəti milli çərçivədən beynəlxalq səviyyəyə çıxaraq, ümumdünya mədəniyyətinin önəmli tərkib hissəsinə çevrilib.

**Adəm ABBASLI**
**"Azadinform" İnformasiya Agentliyinin müxbiri**

***Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Novruz Bayramı münasibətilə keçirdiyi müsabiqəyə təqdim edilir.***